# AZƏRBAYCANDA QARŞILIQLI YARDIM İNSTİTUTUNUN MAHİYYƏTİ VƏ TƏŞƏKKÜLÜ

**İ.G.MƏMMƏDOVA**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*ilqame@mail.ru*

*Azərbaycan xalqı təsərrüfat, məişət və mədəniyyətin bütün sahələrində qarşılıqlı yardımın müxtəlif formalarını yaradıb yaşatmışdır. Qarşılıqlı yardım mahiyyəti daşıyan əmək birlikləri və ya fərdi el köməklikləri ehtiyacı olan kəslərə fiziki və maddi yardımı əhatə edirdi. Xalqımızın milli vəhdətini ehtiva edən bu yardımlar sayəsində ölkədə məhsuldar qüvvələr fasiləsiz intişar tapmağa nail olmuşdur.*

Azərbaycan xalqının sahib olduğu mütərəqqi adətlərdən biri də qarşılıqlı yardım formalarıdır. Bu adət əsas etibarilə torpağın şumlanması, becərilməsi, məhsul toplanması, taxıl biçini, ot çalınması, ev tikintisi, bayramlar, toy və yas mərasimlərində daha çox icra olunmuş, ehtiyacı olan ailələrə el yardımını ifadə etmişdir. Qarşılıqlı yardım ayrı-ayrı insanların, ailələrin toplum daxilində bir-birinə elliklə göstərdiyi təmənnasız köməklikdən ibarətdir. Dünyanın qloballaşdığı, sivil dəyərlərin önə çəkildiyi, humanizmə ehtiyac duyulduğu müasir zamanda xalqımızın bu keyfiyyətləri əks etdirən, qədim təkamülə köklənən adətinin araşdırılması böyük elmi əhəmiyyət kəsb edir.

Yarandığı ilk gündən təbiət qarşısında aciz qalan, lakin "güc birlikdədir" deyən insan öz qüvvəsini, istedad və bacarığını digərləri ilə birləşdirməyə səy göstərmişdir. Zəif və silahsız halda fövqəladə qüvvələrə qalib gəlmək heç zaman mümkün olmamışdır. Məhz birlik nəticəsində ibtidai insanlar cəmiyyət təşkil etmiş, təbii qüvvələrə qarşı uğurlu mübarizə aparmışlar.

Qarşılıqlı yardım formalarının ilkin rüşeymləri ibtidai icma cəmiyyətində meydana gəlmişdir. Bu faktı insanların erkən təsərrüfat fəaliyyətində görmək olar. İbtidai insanlar kollektiv şəkildə maddi nemətlər əldə etmiş, şüurlu hərəkətlərə yiyələnmişlər. Onlar ovçuluq, yığıcılıq, ilkin əkinçilik və maldarlıqda elliklə iştirak edirdilər. Sürü halında yaşayan ibtidai insanlar qida əldə etmək üçün birgə fəaliyyət göstərir, əks halda onlar vəhşi heyvanların şikarına çevrilə bilərdilər. İlkin əkinçilik və maldarlıqla məşğul olan qəbilə icmasını da eyni aqibət gözləyirdi. Qan qohumluğu əsasında bir-birinə bağlı olan qəbilə üzvləri göstərilən səbəblərdən, eləcə də təsərrüfat çətinliyindən kollektiv fəaliyyəti və bu kollektiv daxilində köməkləşməni təbii seçim bilmişlər.

Cəmiyyətin inkişaf mərhələsinə nəzər saldıqda təbiətlə fərdi surətdə insan tək deyil, insan kollektivi və onun yaradıcılığı arasında sıx vəhdət müşahidə olunur. Yaşayış evləri, yollar, körpülər, suvarma sistemləri — bütün bunlar insanların, ailələrin

birliyinin, yardımlaşmasının sayəsində olmuşdur. İcma üzvləri əldə etdikləri qida məhsulunu öz aralarında bərabər şəkildə bölüşdürür, yaratdığı maddi mədəniyyət nümunələrindən ümumi istifadə edirdilər. Bu hal icmanın dağılaraq ayrı-ayrı ailələrə bölünməsi dövründə, hətta kiçik ailələrin mövcud olduğu zamanlarda da müşahidə edilmişdir. Xalq birgə yaşayış qanunlarından irəli gələn qarşılıqlı yardım formalarını yaratdığı kimi, onu qoruyaraq yaşatmışdır. Bu, ondan irəli gəlirdi ki, haqqında bəhs etdiyimiz adət hüququna ehtiyac var idi. Təsərrüfatın zəif inkişaf tempi, primitiv texniki vasitələr, insan əməyinin ekstensiv məhsuldarlığı ibtidai dövrdən başlayaraq sonrakı tarixi mərhələlərdə, hətta müasir dövrdə də qarşılıqlı yardımların davam etməsinə rəvac vermişdir. Hər bir kənd icmasının, sonralar isə kiçik ailələrin düşdüyü çətinliklər onun məhvinə apara bilərdi. Dara düşmüş ailənin həmyerlisi, həmkəndlisi köməyə gəlməklə həm qohumuna, qonşusuna yardım edir, həm də bu yolla özü gələcəkdə bu cür ağır sınaqlardan çıxmış olurdu.

Qarşılıqlı yardım adəti cəmiyyətin keçmiş təkamülünə elə güclü bağlanmışdır ki, tarixin bütün dəyişikliklərinə baxmayaraq, müasir dövrədək yazılmamış qanunlar sırasında saxlanılmışdır. Xalqın yoxsulluq vəziyyəti, müharibələr və cəmiyyətin hakim təbəqə tərəfindən ədalətsiz idarəçiliyi qarşılıqlı yardım adətinə tələbat yaratmışdır. Hər dəfə ictimai-iqtisadi quruluşlar dəyişdikcə, xalq yaratdığı adətini təkmilləşdirir, ona yeni forma, məzmun əlavə edirdi. Xalq tərəfindən yaradılan bütün iqtisadi və sosial təsisatlar öz başlanğıc mənbəyini ibtidai dövrdən — dilin, yazının olmadığı, dinin zəif olduğu çağlardan götürmüşdür. Əsrlər əvəzləndikcə, feodalizm quruluşundakı feodal-asılı münasibətlər kəndlərdə qarşılıqlı yardım formaları adı altında kəndli birliklərinin, eləcə də şəhərlərdə sənətkar və tacir birliklərinin yaranmasına səbəb olmuşdur. Şəhər sakinləri “əsnaf”, “əxi” təşkilatları, gildiyalar təsis etmiş, kəndlilər isə “ortaqlıq”, “şəriklik” və s. birliklərə malik olmuşlar. Məhsuldar qüvvələr məhz xalqın yaratdığı birlik formalarının və bir-birinə arxalanmasının nəticəsində inkişaf etmiş, yeni sosial cəmiyyətlər təşəkkül tapmışdır.

Zaman keçdikcə, dövlətin qanunvericilik aktları ümumi icma mülkiyyətini tədricən dağıtsa da, kənd həyatındakı adət-ənənələr və vərdişlər yeni qanunlardan təcrid olunmuşlar. Kəndlilər yeni forma və birliklər (“iməcilik”, “hoy”, “əvrəz”, “cey”, “bədəl”, “ziyanlıq”, “damazlıq”, “umya”, “mədəd” və s.) (2, 83-104; 7, 74-81) təşkil edərək əkin-biçin işlərində, ev tikintisində, yanğın zamanı və s. işlərdə özlərini sığortalayaraq qoruya bilmişlər. Bu köməklik sayəsində kənd sakinləri quraqlıq, daşqın, epidemiyalar və digər fövqəladə hallarda məhsulsuzluğa, itkilərə davam gətirmişlər. Əlavə mənbələr maddi durumu zəif olan kəndli təsərrüfatlarını mühafizə edə bilmişdir. Qarşılıqlı yardım adətini saxlamaqla xalq hakim təbəqənin mövcud olmadığı, mülki bərabərlik olan icma dövrünün qanunlarını davam etdirir, bununla da, dövlətdən asılılığını aradan qaldırmağa çalışırdı.

Qarşılıqlı yardım formaları və ya el köməyi adətləri coğrafi mühitin, ictimai-iqtisadi amillərin təsiri altında yaranıb formalaşmışdır. Lakin bir məqama da diqqət yetirilməlidir ki, insanlar arasında münasibətləri şərtləndirən mənəvi-psixoloji, etik faktorlar da hər zaman həlledici rol oynamışdır.

Azərbaycan ərazisində orta əsrlərdə islam mədəniyyətinin yayılması qarşılıqlı yardım adətinin formalaşmasına təkan vermişdir. Buna misal olaraq qarşılıqlı yardım institutunun müxtəlif formalarının əsasən ərəb mənşəli adlarını — “əvrəz”, “bədəl”, “şəriklik” və s. göstərmək olar. Qarşılıqlı yardımların orta əsrlərdə möhkəmlənməsi

bir tərəfdən onunla bağlı idi ki, ərəb ağalığı dövründə işğalla əlaqədar təsərrüfatın dağılması, insanların mənəvi cəhətdən əzilməsi və digər səbəblər üzündən xalq bir-birinə möhkəm söykənərək çətinliyə sinə gəlmişdir. Digər tərəfdən isə əsas amil olaraq islam hüququnun təsiri danılmaz faktdır. Qurani-Kərimdə deyilir: "Kim Allah rizası üçün heç bir minnətdarlıq gözləmədən öz malından, qidasından yoxsula, yetimə verərsə, həmin şəxsin mükafatı behişt olacaqdır" (3). Göründüyü kimi, müsəlmanların bir-birinə göstərdiyi yardım şəriət hüququnun əsas normalarında təsbit olunmuşdur. Qarşılıqlı yardım institutunun iqtisadi roluna tədricən onun etik əhəmiyyəti üstün gəlmişdir. Sonuncu kənd həyatında qarşılıqlı yardımları saxlamış, insanlar, ailələr arasında qapalılığa, tamahkarlıq və hərisliyə imkan verməmiş, müxtəlif səviyyəli təsərrüfatların bərabərləşdirilməsinə səbəb olmuşdur. Şəriət düzgün olaraq tamamilə yoxsulluğa düçar olmamaqdan ötrü cəmiyyətin bütün fəaliyyət sahələrində insanları bir-birinə qarşı köməyə çağırmışdır (8, 506).

Xalq arasında "Ev tikənlə evlənənə Allah kömək olar", "Ruzini Allah verir", "Şəriklikdə haram olmaz", "Əl tutmaq Əlidən qalıb" və s. ibrətamiz kəlamlar qarşılıqlı yardım institutunun möhkəmlənməsində şəriət təsirinin göstəricilərindəndir. Məhəmməd Peyğəmbərin hədislərinin birində buyurduğu "özü tox, qonşusu ac olaraq yatan bizdən deyil" kəlamı xalq arasında el məsəlinə çevrilmişdir. "Allah hoyuna çatsın" zərb-məsəli el camaatı tərəfindən təşkil olunan qarşılıqlı yardım formaları əslində xalqın gözündə "yaradan tərəfindən göndərilənköməklik" kimi qələmə verilməsi fikrini deməyə əsas verir. Bu baxımdan da köməklikdən əsassız səbəblər gətirməklə boyun qaçırmaq böyük qəbahət hesab olunurdu. Bu, təkcə ev sahibinə, tədbiri təşkil edən qabaqcıl, hörmətli şəxslərə deyil, həm də dinə, imana hörmətsizlik idi. Göründüyü kimi, şəriət ayrı-seçkilik etmədən bütün insanların bir-birinə yardım etmələrini əmr etmiş, hər bir şəxsin güzəştə getməsini, müsəlmanların işlərində bir-birinə məsləhətçi olmalarını istəmişdir (5, 181). İslam dininin insan mənəviyyatına güclü təsiri nəticəsində gözəl əxlaqi dəyərlər daha da zənginləşmişdir.

Xalqın hər bir təbəqəsini əhatə edən qarşılıqlı yardım adəti uzunömürlü vətəndaşlıq hüququ qazanmışdır. Yeni dövrdə Azərbaycanın siyasi və ictimai-iqtisadi inkişafı sonuncuya təkan vermişdir.

XIX — XX əsrin əvvəllərində Azərbaycanda mövcud olan patrialxal (böyük) ailələr əmtəə-pul münasibətlərinin inkişafı nəticəsində tədricən dağılmış və onların əvəzində qohum olan kiçik ailələr təşəkkül tapmışdır. Fərdiyyətçiliyə və xüsusi mülkiyyətə malik kiçik ailələr maddi və fiziki baxımdan öz tələbatlarını tam şəkildə ödəyə bilmir, iqtisadi müstəqilliklərini doğrultmurdular. Bir nəsildən yenicə ayrılan kiçik və ya böyük ailələr arasında ictimai, iqtisadi və mənəvi münasibətlər onların yuxarıda göstərilən ehtiyaclarını ödəməsinə imkan vermişdir. Bir nəsildən ibarət olan qohum ailələr birlik təşkil edirdilər. Bu tip ailə birlikləri elmi ədəbiyyatda patronimiya, onlar arasındakı münasibətlər isə patronimik münasibətlər adlandırılır (10, 6). Azərbaycanda patronimiya tədqiq etdiyimiz dövrdən çox-çox əvvəl yaranmışdır. Etnoqraf Q.Qeybullayev bu prosesin ölkəmizdə V əsrdə baş tutduğunu söyləmişdir (4, 88).

Patronimik qrupların özünəməxsus xüsusiyyətləri, ənənəvi qayda-qanunları mövcud idi. Bu tipli ailələr maddi və fiziki tələbatla əlaqədar əkinçilik, maldarlıq və sənətkarlıq sahələrində əmək birləşmələri yaratmış, bir-birinə qarşılıqlı yardım etmişlər. Onlar istənilən mərasimləri, ailə məişətinin gündəlik məsələlərini birlikdə həll edirdilər. Çünki bu ailələr eyni nəslin budaqları — qan qohumları idilər. Bu tip

ailələrdə belə bir fikir formalaşmışdı ki, istəyindən asılı olmayaraq qohumuna kömək etməyə borcludurlar. Bu prosesə onların qan yaddaşları ilə yanaşı, yaşayış məskənlərinin sosial strukturu, təsərrüfatda daşıdıqları funksiya təsir etmişdir. Bu cür patronimik qruplar xalq arasında müxtəlif ifadələrlə adlandırılırdı: "bir evdən ayrılanlar", "bir külfətdən ayrılanlar", "bir atanın uşaqları", "bir kökdən olanlar", "bir toxumdan olanlar", "qanı bir olanlar", "bir nəsildən olanlar", "bir tayfanın adamları", "bir çiləkdən olanlar", "bir arxadan olanlar" (9, 175) və s. Eyni kökdən ayrılan patronimik ailələr əsasən bir-birinə yaxın yerlərdə məskunlaşmış və ayrıca məhəllələr təşkil etmişdilər. Bununla da, onlar arasında sosial-mənəvi birlik olduqca möhkəm olmuşdur. Xüsusilə də, xeyir-şər işlərində, bayramlarda və digər mərasimlərdə, həmçinin qan intiqamı məsələsində bu birliyin möhkəmliyi özünü açıq-aşkar büruzə verirdi.

Patrialxal ailələrdə olduğu kimi patronimik qruplara daxil olan ailələrdə də böyüyün, atanın sözü qanun idi və əks halda, qınaq obyektinə çevrilmək heç kimin arzusu deyildi. Patronimiyanın mənəvi başçısı ağsaqqal hesab olunurdu. İstər ailə məişətində, istərsə də aparıcı təsərrüfat sahələrində mövcud olan qarşılıqlı yardım formaları məhz ağsaqqallıq institutunun təşəbbüsü ilə həyata keçmiş və adət olaraq saxlanılmışdır.

Patronimik qruplar arasında sıx münasibətlər ictimai-iqtisadi inkişafın müəyyən mərhələsində səngiyir və bu tipli ailələrin qapalılığı aradan qaldırılır. Bununla da, kiçik fərdi ailələr öz iqtisadi müstəqilliklərini reallaşdırır. Kiçik ailələr qohumluq həlqəsini zəiflətsələr də, onlar qarşılıqlı yardım mahiyyətli davranışları vasitəsilə qonşuluq münasibətlərini möhkəmlədirdilər. Bu proses daha çox miqrasiyaya məruz qalan dağlıq və düzənlik bölgələrində, eləcə də şəhər mühitində aşkar görünürdü. Əhali yerdəyişmələri patronimiyadan ayrılan kiçik ailələrin müxtəlif bölgələrə istiqamətlənməsinə gətirib çıxarmış və bunun nəticəsində poligen məskənlər artmışdır. Kiçik ailələr arasında mövcud qarşılıqlı yardım formaları başlıca olaraq qonşuluq mülahizələrinə əsaslanırdı. Bu fikir atalar sözlərində də özünə yer tapmışdır: "Yaxın qonşu uzaq qohumdan yaxşıdır".

Qarşılıqlı yardım formalarının saxlanmasında yaşayış məskənlərinin sosial strukturu və idarəçilik sistemi də mühüm rol oynamışdır. Şəhər və kənd məskənlərində mövcud qarşılıqlı yardım formalarını müqayisə etdikdə məlum olur ki, bu adət kənd yerlərində daha geniş vüsət almışdır. Qeyd olunduğu kimi, qarşılıqlı yardım institutunun yaranma səbəblərindən biri də təsərrüfatın zəif inkişaf tempidir. Doğrudur, şəhərlərdə iqtisadi inkişaf göstəriciləri kəndlərə nəzərən yüksək əmsallarla ifadə olunur. Lakin vacib bir məqama da diqqət yetirilməlidir ki, kənd məskənlərində qohumluq mülahizələri daha güclüdür, şəhərlərdə isə əhalinin tərkibi qeyri-qohumlardan, hətta müxtəlif mədəniyyətlərin daşıyıcısı olan ayrı-ayrı etnik qruplardan ibarət idi.

Kənd yaşayış məskənləri üçün başlıca olaraq poligen (yəni qonşuluq münasibətlərinə əsaslanan, müxtəlif qan qohumlarından ibarət) xarakter səciyyəvi idi. Lakin bəhs etdiyimiz dövrdə qan qohumluğu prinsipi ilə təşkil olunmuş, monogen mahiyyətli yaşayış məskənləri də mövcud olmuşdur. Tədqiqatçılar belə hesab edirlər ki, qarışıq tərkibli kəndlərin yaranması ilk olaraq dağlıq rayonlarda baş vermişdir (1, 20). Qohumluq münasibətlərinin dağlıq bölgələrdə erkən pozulmasına baxmayaraq, qarşılıqlı yardım təsisatı burada formalaşan qonşuluq və qohum-qonşuluq prinsipi əsasında baş tutmuşdur. Bu faktı dağlıq bölgənin təsərrüfatına xas olan, sırf qarşılıqlı yardım mahiyyəti daşıyan "ortaqlığ"ın arxaik variantında görmək olar. Aran zonadan

fərqli olaraq burada “ortaqlıq” üzvlərinin hansı sərmayə ilə əmək birləşməsində iştirakı vacib şərt deyildi, əməyin nəticəsi onlar arasında bərabər bölünürdü. Görünür, sonuncu məsələyə qohumliq mülahizələrindən çox təsərrüfat ehtiyacları ciddi təsir göstərmişdir. Ümumiyyətlə, dağlıq bölgənin yaşayış məskənlərində əhalinin adət-ənənələrə qarşı konservativliyi aşkar faktdır. Bu isə əmtəə-pul münasibətlərinin bərqərar olduğu dövrdə söhbət gedən ərazinin yaşayış üçün əlverişli olmaması, texniki gerilik və bununla əlaqədar oraya əhali miqrasiyasının zəif olması ilə bağlı idi.

Şirvanın maddi mədəniyyətini tədqiq edən etnoqraf A.Mustafayev aran kəndlərindəki məskənlərin çoxunun qohumluq əsasında təşkil olunduğunu yazmışdır. Müəllif bu kəndlərin əksəriyyətinin XIX əsrin ortalarından etibarən maldar elatların oturaqlaşması nəticəsində yarandığını göstərmişdir (6, 19). Göstərilən bölgədə məskun olanlar ailə icması halında yaşamış, sonralar isə böyük ailələrin seqmentasiyası baş verdiyindən onlar patronimik qruplar şəklində qərarlaşmışlar.

Yaşayış məskənləri müəyyən qaydada təşkil olunmuş insan toplusunu əhatə etdiyindən onların hər birinin tarixən özünəməxsus idarəçilik sistemləri olmuşdur. XIX əsr — XX əsrin əvvəllərində Azərbaycan ərazisində əsasən kənd məskənləri üstünlük təşkil edirdi. Göstərilən məskənlərdə dövlətin qanunvericiliyi ilə yanaşı, xalqın əsrlər boyu formalaşan, adət-ənənələrə əsaslanan bəsit və demokratik idarəçilik sistemi olmuşdur. Kənd məskənlərində idarəçilik icma başçısının və onun ətrafında toplanmış ağsaqqallar şurasının məsləhət, məşvərət, sərəncam və göstərişləri əsasında həyata keçirilirdi. Ağsaqqallar şurasının rəhbəri icmanın ən nüfuzlu şəxsi olmalı idi. Onun rəhbərliyinə qazandığı həyat təcrübəsi, ağıllı, tədbirli olması stimul verirdi. Ağsaqqallar şurası seçilmir, bu qrumun üzvləri nüfuzlarına görə öz-özlərinə təsis olunurdu. Onlar mübahisəli və ya təcili durumda olan məsələləri birlikdə həll edirdilər.

Kənd əhlinin köməyinə ehtiyacı olanlar — ziyana düşən, yaşayış evi müəyyən səbəblərdən dağılan, öz sahəsində əkin-biçini təkbaşına bacarmayan, xeyir iş tutmaq istəyən, yaxud hüzürü düşən və s. ailələr öz başçıları vasitəsilə el ağsaqqallarına müraciət edirdilər. Bəzən isə ağsaqqalların yığıncağında müraciət olmadan belə hansı ailənin köməyə ehtiyacı olduğu müəyyənləşdirilirdi. Onlar götür-qoy etdikdən sonra həmin ailəyə göstəriləcək yardımın məzmununu incələyirdilər. Yeni yaranan gənc ailə başçıları yığıncaqlarda dinləyici kimi iştirak edirdi, çünki böyüklərin qarşısında onların fikir söyləməsi düzgün hesab edilmirdi. Kəndlərin ortasında “gində yeri” adlanan camaat meydanı olurdu. Qocaların verdiyi məlumata görə, kəndin ictimai və məişət həyatına aid olan bütün məsələlər burada müzakirə edilirdi. Bu mənada “gində yeri” qədim qəbilə məskənlərinin zəmanəmizədək gəlib çatmış ən arxaik elementidir (6, 22).

Beləliklə, məlum olur ki, qarşılıqlı yardım formaları ilk olaraq ibtidai dövrdə yaranmış, insanların fövqəltəbii qüvvələrə qarşı mübarizəsini təmin etmişdir. Təsərrüfat ehtiyaclarından və hakim təbəqənin ədalətsiz idarəçiliyi üzündən davam etdirilən qarşılıqlı yardım təsisatı orta əsrlərdə şəriət qaydaları əsasında nəzəri cəhətdən əsaslandırılmışdır. Yaşayış məskənlərinin relyef strukturu və daxili quruluşu, əhalinin sosial tərkibi, habelə özünəməxsus ənənəvi idarəçilik sistemi qarşılıqlı yardım formalarının yeni dövrdə saxlanmasına şərait yaratmışdır.

Qarşılıqlı yardım formaları tarixi varislik prinsipinə əsaslanmış, zaman-zaman sosial-iqtisadi quruluşlar çərçivəsində dəyişilən təsərrüfat-mədəni tiplərə uyğun təkmilləşmiş, sosial institut səviyyəsinə yüksəlmişdir. Xalqın ictimai-iqtisadi, mədəni-

texniki inkişafını özündə əks etdirən, mənəviyyat meyarı hesab olunan, psixoloji, əxlaqi, etik və humanist mahiyyətinə görə etnosun milli müəyyənlik göstəricisi olan qarşılıqlı yardım institutu təsərrüfat və ailə məişətimizin, maddi və mənəvi mədəniyyətimizin bütün sahələrində özünü göstərmiş, müxtəlif terminlərlə ifadə olunsa da, məzmun və mahiyyət etibarilə eynilik təşkil etmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyasi: 3 cilddə, II c. Bakı: Şərq-Qərb, 2007, 384 s.
2. Azərbaycan etnoqrafiyasi: 3 cilddə, III c. Bakı: Şərq-Qərb, 2007, 557 s.
3. Qurani-Kərim, İnsan surəsi (tərcümə edənlər Məhəmməd Qəni oğlu, Tariyel Bilal oğlu), Bakı: Göytürk, 2000, 714 s.
4. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah: 2 hissədə, I hissə, Bakı: 1994, 274 s.
5. Əliyev R. Dinin əsasları. Bakı: Qismət, 2004, 271 s.
6. Mustafayev A. Şirvanın maddi mədəniyyəti. Bakı: Elm, 1977, 156 s.
7. Rəcəbli Q. Azərbaycanda qarşılıqlı yardım formalarının tədqiqi məsələsinə dair // Bakı Qızlar Universitetinin Elmi Əsərləri, Bakı, 2008, № 1, s. 74-81
8. Sahih-i Buhari ve tercemesi (tərcümə edəni Mehmet Safuoğlu), 15 cilddə, XIII c., İstambul: Ötüken, 1989, 605 s.
9. Ахмедов А. Пережитки патронимических отношений у азербайджанцев / Азербайджанский этнографический сборник, вып. III. Баку: 1977, с. 174-181
10. Косвен М. Семейная община и патронимия. М.: Заруб. лит.-ра, 1963, 219 с.


## ФОРМИРОВАНИЕ И СУЩНОСТЬ ИНСТИТУТА ВЗАИМОПОМОЩИ В АЗЕРБАЙДЖАНЕ


**И.Г.МАМЕДОВА**


### РЕЗЮМЕ


В области хозяйство у азербайджанцев существовали разные формы взаимопомощи. Внутри трудовых объединений земледельцы помогали друг-другу материально и физически. Именно благодаря этой помощи ускорился процесс развития продовольственной силы в стране.

Изучением института взаимопомощи в Азербайджане впервые занимали русские авторы. Во второй половине XX века этнографы исследовали формы взаимопомощи как «имеджилик», «эврез», «бедел», «шериклик», «ортаклык» и др.


## THE FORMATION AND ESSENCE OF THE INSTITUTE OF MUTUAL AID IN AZERBAIJAN


**I.G.MAMMADOVA**


### SUMMARY


The Azerbaijani people created and made use of different forms of mutual aid in all spheres of industry, culture etc. Labour unions or individual community aids included physical and material aids to the people in need. Thanks to these communities, the process of development of productive forces in the country extended.

İnitially, Russian investigators initiated to study the forms of mutual aid in Azerbaijan. At the second half of the XX century several forms of mutual aid such as «imajilik», «avraz», «bedel», «sheriklik», «ortaklik» were investigated by Azerbaijiani ethnographers.